# Həftəlik
# *Bülleten*



**087**
**11 Aprel 2025**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və layihələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Bakıda ikinci “Sustainable Construction Summit” tədbiri keçirilib.**

Aprelin 10-da “Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası” İctimai Birliyinin və “PMD Projects” MMC-nin birgə təşkilatçılığı ilə “Sea Breeze Resort”da “people. planet. prosperity.” konsept mesajı ilə ikinci “Sustainable Construction Summit” tədbiri keçirilib. Zirvə bir bütöv günü əhatə etməklə Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimovun, “PMD Projects” MMC-nin direktoru Nəriman Topçibaşevin, Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov və “Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası” İctimai Birliyinin İdarə Heyətinin sədri Orxan Xəlilzadənin açılış nitqlərindən, “Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi” üzrə müzakirələrə həsr olunmuş “Follow-up” adlı Davos tipli paneldən, “Açıq söhbət” adlı eksklüziv sessiyadan, PMO.az-ın dəstəyi ilə keçirilmiş vörkşopdan, eləcə də “The Builder’s Awards” təltifetmə mərasimindən ibarət olmaqla 7 spiker, həmçinin 250 nəfər rəhbər, idarəçi və qərarverici şəxslərin iştirakı ilə təşkil olunub. Paneldə şəhərsalma və inşaat sahəsində mövcud trendlər, dayanıqlı tikinti həlləri və layihə idarəçiliyinin əhəmiyyəti müzakirə olunub. Sözügedən sahədə yerli və beynəlxalq əməkdaşlığın inkişafı və innovativ yanaşmaların tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan – Rusiya İşgüzar Şurasının İdarə Heyətinin sədri və “Sea Breeze Resort”un sahibi Emin Ağalarov isə çıxışı zamanı vurğulayıb ki, müasir tikinti layihələri ekoloji tarazlığı qorumaqla yanaşı, uzunmüddətli sosial və iqtisadi fayda da təmin etməlidir.



**Türkiyədən Azərbaycana semenet ixracı azalıb.**

Türkiyə 2025-cü ilin mart ayında Azərbaycana sement ixracını 2024-cü ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz azalaraq, 3 milyon 451 min 1 dollara çatdırıb.

Bu barədə TurkicWorld-ə Türkiyə Ticarət Nazirliyindən məlumat verilib.

2025-ci ilin yanvar – mart aylarında Türkiyədən Azərbaycana sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 14,6 faiz azalaraq, 10 milyon 219 min 76 dollara bərabər olub.

Qeyd edək ki, 2025-ci ilin yanvar-mart aylarında Türkiyənin sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz azalaraq, 1 milyon 15 min 119 dollara bərabər olub.

“Bu ilin mart ayında Türkiyə 376 min 488 dollar məbləğində sement ixrac edib ki, bu da keçən ilin mart ayı ilə müqayisədə 2,2 faiz azdır” – deyə nazirlikdən bildirilib.

Qeyd olunub ki, son 12 ay ərzində (mart 2024-mart 2025) Türkiyə 4 milyon 270 min 944 dollar məbləğində sement ixrac edib.



**Mənzili təmirli, yoxsa təmirsiz almaq sərfəlidir?**

Son illər Bakıda çoxmərtəbəli binalardakı mənzillərin, həyət evlərinin 30%-i təmirli satılır. Lakin 20 il bundan qabaq təmirli mənizllərin satışı, demək olar ki, yox səviyyəsində idi. əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib ki, yeni çoxmərtəbəli binalarda satılan mənzillərin əksəriyyəti təmirsiz olur. "Vətəndaşlar bu mənzillərin təmirini öz üzərinə götürürlər. Lakin bəzi tikinti şirkətləri kreditli şərtlərlə təmirli mənzillər satırlar və vətəndaş onu belə vəziyyətdə almağa məcbur olur. Köhnə tikili binalara nəzər salsaq, görərik ki, mənzillərin hər biri yüksək olmasa da, təmirli formada satılır. Belə binalarda mənzil alan şəxslər əksər hallarda köhnə təmiri sökərək, özləri yenidən təmir edirlər. Lakin vətəndaşlar təmirsiz mənzil alarkən diqqətli olmalıdır.Təmir edən şirkət və ya qrup peşəkar olmalıdır. Əsas da elektrik naqillərinin, sanitar qovşaqların borularına diqqət etməlidirlər", - o bildirib. Ekspert qeyd edib ki, yay aylarında həyət evlərinin satışı yüksəlir. "Bu aylarda təmirli alınan mənzildə fəsadlar qış aylarında üzə çıxır. Mənzil alan vətəndaş mütləq şəkildə peşəkar ustalara müraciət edərək, tikilinin təmirinin keyfiyyətini yoxlatmalıdır". Əmlak satışı ilə məşğul olan Cəlil Əliyev isə bildirib ki, hansı mənzilin daha sərfəli olduğunu seçmək bir neçə amildən asılıdır və bu qərar sizin şəxsi tələblərinizə, maliyyə vəziyyətinizə və uzunmüddətli məqsədlərinizə bağlıdır. "Ən yaxşı qərarı vermək üçün sizin maliyyə vəziyyətiniz, vaxt məhdudiyyətləriniz və şəxsi ehtiyaclarınız nəzərə alınmalıdır", - deyə o qeyd edib.



**Bakıda köhnə binaların sökülməsindən sonra mənzillər bahalaşacaq?**

Bakı şəhərinin bəzi ərazilərində köhnə tikililərin, yaşayış və qeyri-yaşayış obyektlərinin köçürülməsi, söküntü və abadlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Məlumata görə, söküntü işləri istismar müddəti başa çatan və tarixi əhəmiyyət daşımayan, əsasən, qəzalı vəziyyətdə və aşınma dərəcəsi olduqca yüksək olan bina və tikililəri əhatə edir. Söküntü işləri paytaxtın mənzil bazarında qiymətlərə necə təsir edəcək? Mövzu ilə bağlı Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri, iqtisadçı-ekspert Vüqar Oruc açıqlamasında deyib ki, Bakı şəhərinin baş planına əsasən, paytaxtın infrastrukturu yenidən qurulacaq. "Bunun üçün prioritet məsələlərdən biri də şəhərin yenilənməsi və yaşıllıq sahələrinin daha çox olmasına önəm verilməsidir. Getdikcə şəhər əhalisi artır. Bununla yanaşı, şəhərdə sıxlıq da artır. Bunları aradan qaldırmaq üçün şəhər böyüməli və inkişaf eləməlidir. Bu səbəblərdən dolayı şəhərin kənar ərazilərə doğru böyüdülməsi, infrastrukturun inkişafı barədə planlar mövcuddur. Prioritetlərdən biri də odur ki, yeni tikililər inşa edilən zaman şəhərin bu günə qədər olan memarlıq siması saxlanılmalı, tarixi binalar toxunulmaz qalmalıdır. İlkin mərhələdə 300-ə yaxın binanın sökülməsi gözlənilir."

Əmlak məsələləri üzrə ekspert Orxan Rüstəmov bildirib ki, Bakı şəhərində binaların sökülməsi və yeni tikililərin inşası, adətən, mənzil bazarını birbaşa təsir edir və qiymətlərin bahalaşmasına səbəb ola bilər.



**Azərbaycanda sənaye istehsalı 3%-ə yaxın azalıb.**

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-mart aylarında 15,8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az sənaye məhsulu istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir. Sənaye məhsulunun 62,4 faizi mədənçıxarma sektorunda, 30,3 faizi emal sektorunda, 6,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 2,0 dəfə, əczaçılıq məhsullarının istehsalı 43,3 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 31,4 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 23,7 faiz, maşın və avadanlıqların istehsalı 20,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 15,6 faiz, qida məhsullarının istehsalı 12,2 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 3,1 faiz, kimya sənayesi məhsullarının istehsalı 1,9 faiz artıb, içkilərin istehsalı 0,9 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 1,8 faiz, elektrik avadanlıqlarının istehsalı 2,4 faiz, tütün məmulatlarının istehsalı 3,1 faiz, neft məhsullarının istehsalı 7,0 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 8,0 faiz, tikinti materiallarının istehsalı 9,5 faiz, mebel istehsalı 9,7 faiz, hazır metal məmulatlarının istehsalı 18,1 faiz, kağız və karton istehsalı 31,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 32,8 faiz azalıb.



**Rusiya Ticarət-Sənaye Palatasının Azərbaycanda fəxri nümayəndəsi Mariya Suvorovskaya ATMİA-nın Fəxri Üzvü diplomu təqdim edilib.**

7 aprel tarixində Rusiya Ticarət-Sənaye Palatasının Azərbaycanda fəxri nümayəndəsi Mariya Suvorovskaya ATMİA-nın Fəxri Üzvü diplomu təqdim edilib. Görüş zamanı 27-30 may tarixində Azərbaycan şirkətlərinin Moskvaya biznes missiyası planlanıb. Rusiya ilə hazırda ticarət edən və ixracat etməyi planlayan şirkətlərdən 5 iş günü ərzində assosiasiya əlaqə saxlaması xahiş olunur.
Tel.: +99450 265 36 34; +99410 250 03 24



**ATMİA Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası ilə memorandum imzalayıb.**

ATMİA İnşaat Həftəsi çərçivəsində növbəti uğurlu addımı Sizə təqdim edirik. ATMİA Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası ilə memorandum imzalayıb. Qərara alınıb ki, hər 2 assosiasiya növbəti fəaliyyət ili üçün ortaq layihələr icra etsin. Qeyd edək ki, dünya layihə maliyyə bazarına çıxış imkanlarını təhlil etməklə bağlı olacaq.



**“İnşaatçılar Günü” münasibətilə Mətanət A Şirkətlər qrupuna aid AĞDAĞ gipskarton zavoduna infotur təşkil edilib.**

8 aprel tarixində 10 aprel “İnşaatçılar Günü” münasibətilə Mətanət A Şirkətlər qrupuna aid AĞDAĞ gipskarton zavoduna infotur təşkil edilib. Yüksək keyfiyyəti ilə regionda qısa müddətdə tanınan, ən tələbkar usta, ev sahibi və tikinti şirkətlərinin rəğbətini qazanan AĞDAĞ gipskarton lövhələri sadə, nəmədavamlı və odadavamlı olmaqla 3 çeşiddə istehsal edilir.



**10 aprel "İnşaatçılar günü" münasibətilə ""Mətanət A"-dan inqilabi yenilik – İNOVEX" tədbiri baş tutub.**

9 aprel tarixində 10 aprel "İnşaatçılar günü" münasibətilə növbəti layihə uğurla tamamlandı. Mətanət A Şirkətlər qrupu tərəfindən ölkəmizdə ilk dəfə istehsalına başlanılan və mişar daşı, kərpic, müxtəlif hörgü bloklarını əvəz edəcək İNOVEX oda və nəmədavamlı fasad lövhələri ilk dəfə məhz ATMİA üzvlərinə təqdim edildi. İNOVEX inşaat prosesinin sürətli tamamlanmasına, mürəkkəb memarlıq hellərinin asan tətbiqinə və ən önəmlisi büdcənizə qənaət edəcək.
Daha ətraflı: *3030



**Matanat A Ustalar Klubuna daxil olan Ağdağ Ustalar Qrupunun Naxçıvan şəhərində "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur.**

Matanat A Ustalar Klubuna daxil olan Ağdağ Ustalar Qrupunun Naxçıvan şəhərində, Azərbaycanın və regionun inşaat materialları bazarında liderliyini qoruyub saxlayan "MATANAT A" şirkətlər qrupunun istehsal etdiyi məhsulların təqdimat tədbiri baş tutmuşdur. Tədbir zamanı şirkətin Marketinq meneceri Əkbər Dostumalıyev öz çıxışında şirkətin inkişaf yolu və gələcək məqsədləri ilə bağlı məlumat verib. Eyni zamanda “Ağdağ Natural Gipskarton Lövhələri”nin üstünlükləri, “AĞDAĞ DİREK” məhsulu, bunlardan əlavə şirkətin istehsal etdiyi ROKOL boya və digər boya məhsulları haqqında ustalara ətraflı məlumat verildi. Verilən məlumatlar, təşkil olunan master klasslar iştirakçılar tərəfindən dərin rəğbətlə qarşılandı. Kluba üzv olan ustaların birbaşa iştirakı ilə master klasslar həyata keçirildi. Şirkətin istehsal etdiyi məhsulları test edərək keyfiyyəti ilə daha yaxından tanış olub, öz müsbət fikirlərini bildirdilər.






**ATMİA üzvü “Məkan İnşaat” MMC**
**Şirkət haqqında:**

“Məkan İnşaat” MMC fəaliyyətinə 2015-cı ildən başlamışdır. Bu zaman ərzində bir çox yaşayış və qeyri yaşayış obyektlərinin (inzibati binalar, yüksək mərtəbəli yaşayış binaları, otel, villa, bağ evi, kotec, hovuz, ofis, restoran və s. layihələndirilməsini etmişdir. Müəsissəmiz daim tikintinin müasir metodlarına, beynəlxalq standartlara yiyələnir və fəaliyyətində tətbiq edir. Müəsissəmiz eyni zamanda memarlıq və inşaat sahəsində baş verən bütün yenilikləri yaxından izləyərək, ortaya çıxan yeni özünə məxsus metod və texnologiyaları layihələndirmə zamanı tətbiq edir.
“Məkan İnşaat” MMC şirkətinin direktoru Qasımov Salam.

**Əlaqə məlumatları:**
Ünvan: Cavadxan Küçəsi 31 C, Bakı, Azərbaycan
Tel: ( +994 51 230 86 16)
E-mail: info@mekan-inshaat.az
https://www.mekan-inshaat.az

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BUILD URAL 2025**
**Tarixlər: 22-24 aprel 2025-ci il,**
**Məkan: IEC 'Ekaterinburg-Expo, 'Yekaterinburq (Rusiya)**
Ural tikinti, dekorasiya materialları və mühəndis avadanlıqları sərgisi

**Sərginin adı: REBUILD 2025**
**Tarixlər: 22-25 aprel 2025-ci il,**
**Məkan: Ifema - Parque Ferial Juan Carlos I , Madrid (İspaniya)**
REBUILD tikinti, təmir və evlərin və binaların enerji səmərəliliyi sektorunu canlandırmaq üçün unikal innovasiya platforması təqdim edir.

**Sərginin adı: YAPI - TURKEYBUILD ISTANBUL 2025**
**Tarixlər: 16-19 aprel 2025-ci il,**
**Məkan: Tüyap Sərgi və Konqres Mərkəzi, İstanbul (Türkiyə)**
Beynəlxalq Bina Sərgisi. Turkeybuild İstanbul, Türkiyədə tikinti sənayesi üçün ən uzunmüddətli tədbirdir.

**Sərginin adı: KYRGYZBUILD 2025**
**Tarixlər: 15-17 aprel 2025-ci il,**
**Məkan: Ksapes Arenası, Bişkek (Qırğızıstan)**
Qırğızıstanda Tikinti və İnteryer, İstilik və Havalandırma, Pəncərələr, Qapılar və Vitrajlara həsr olunmuş sərgi

**Hacıqabulun bu qəsəbəsində evlər tikiləcək - 718 MİNLİK TENDER**

Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdriyyəti açıq tender elan edir.
Elanda Nəvahi qəsəbəsində 11 ədəd fərdi yaşayış evinin tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rəşad Cəfərov, Müqavilə və satınalma sektorunun müdiri
Email : Jafarov.rashad@fhn.gov.az
Əlaqə telefonu : +994125122264



**Təhsil müəssisəsinin yataqxanası təmir ediləcək - TENDER ELANI**

Lənkəran Dövlət Universiteti açıq tender elan edir.
Elanda Lənkəran dfövlət Universiteti Z.Tağıyev 118 ünvanında yerləşən yataqxana binasında cari təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tural Ismayıllı, Satınalmaların təşkili və təchizat şöbəsinin müdiri v.i.e
Email : tural.ismayilov.98@list.ru
Əlaqə telefonu : 070-204-89-00



**AzMİU 120 min manata nələr alır - TENDER ELANI, SİYAHI**

Azərbaycan Memarlıq və İnşaat Universiteti açıq tender elan edir. Elanda sair torpaq tikili və avadanlıqların satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Səfərov Sarvan, Təchizat şöbəsinin müdiri
Email : servan_685@mail.ru
Əlaqə telefonu : 0125106431



## Bakıda 12 hektar ərazidə yeni park salınacaq - TENDER ELAN EDİLDİ

“Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC açıq tender elan edir. Elanda Bakı şəhəri, Nəsimi rayonu, 28 May küçəsindən “The Ritz-Carlton Baku” otelinə qədər olan 12 ha ərazidə yeni istirahət parkının salınmasının layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əhməd Məmmədov, mühəndis
Email : ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu : 0506121527



**Tarixi abidələr bərpa olunur, 556 min manatlıq - TENDER KEÇİRİLİR.**

Ərazi Tikinti-Planlaşdırma Mərkəzi açıq tender elan edir.
Elanda Bakı şəhəri ərazisində yerləşən tarix və memarlıq abidələrinin mühafizəsi məqsədilə abidələrdə inşaat-möhkəmləndirmə və abadlıq işlərinin aparılması üçün layihə-smeta sənədlərinin hazırlanması xidməti nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rüfət Qasımov, Mühəndis
Email : rufat.qasimov@arxkom.gov.az
Əlaqə telefonu : 012-492-31-89 dax (771)



